# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

**“Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət qurumlarının qarşılıqlı fəaliyyətində səmərəliliyin artırılması və Azərbaycan Respublikasının bu sahədə beynəlxalq öhdəliklərinin icrasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı” (bundan sonra – Milli Fəaliyyət Planı) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:

3.1. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

3.2. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ✱ Sənəd dövriyyəsi şöbəsi

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, “15” iyul 2026-cı il

№ 1100

Azərbaycan Respublikası Prezidentinin
2026-cı il "15" iyul tarixli 1100 nömrəli
Sərəncamı ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün**

# MİLLİ FƏALİYYƏT PLANI

## 1. Qısa xülasə

"Azərbaycan Respublikasında İnsan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı" (bundan sonra – Milli Fəaliyyət Planı) bu sahədə təsdiq edilmiş əvvəlki milli fəaliyyət planlarında nəzərdə tutulmuş tədbirlərin davamı olaraq, insan alverinə qarşı mübarizə sahəsində görülməli olan tədbirlərin effektivliyi, insan alverinə qarşı mübarizədə müvafiq dövlət orqanlarının (qurumlarının) qarşılıqlı fəaliyyətinə imkan verən səmərəli sistemin təmin edilməsi məqsədilə hazırlanmışdır.

Milli Fəaliyyət Planı çərçivəsində prioritet istiqamətlər kimi insan alverinə qarşı mübarizə sahəsində normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, insan alverinin qarşısının alınması (profilaktikası), insan alveri cinayətlərinə qarşı cinayət təqibi, insan alveri qurbanlarının sosial reabilitasiyası və müdafiəsi, insan alverindən zərər çəkmiş, zərər çəkməsi ehtimal olunan və ya insan alverinin potensial qurbanı olan uşaqlara göstərilən yardımın və onların müdafiəsinin təkmilləşdirilməsi, insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və bu sahədə fəaliyyət göstərən şəxslər üçün təlimlərin (ixtisaslaşmış peşə hazırlığının) keçirilməsi, insan alverinə qarşı mübarizə ilə bağlı maarifləndirmə və Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin, insan alverinə qarşı mübarizə üzrə dəstəyin və resursların əlaqələndirilməsi müəyyən edilmişdir.

İnsan alverinə qarşı mübarizə sahəsində müşahidə olunan qlobal trendlər Milli Fəaliyyət Planında hərtərəfli araşdırılmış, beynəlxalq vəziyyətin ölkəmizə təsirləri təhlil edilmiş, 5 illik dövr üçün əhəmiyyətli baxış və hədəf göstəriciləri, müvafiq tədbirlər, onların icra müddətləri, əsas və digər icraçıları müəyyənləşdirilmiş, eləcə də icra mexanizmləri təsbit olunmuşdur.

Milli Fəaliyyət Planının icrası Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə tədbirlərinin təkmilləşdirilməsini, insan alverinə qarşı mübarizənin bütün dövlət orqanları (qurumları) və vətəndaş cəmiyyəti institutları ilə birlikdə sistemli və əlaqəli şəkildə həyata keçirilməsini təmin etməklə yanaşı, insan alverinə qarşı mübarizə sahəsində həyata keçirilən məqsədyönlü və qətiyyətli fəaliyyətin tərkib hissəsi kimi insan hüquq və azadlıqlarının etibarlı qorunmasına şərait yaradacaqdır.

Milli Fəaliyyət Planının səmərəliliyini artırmaq, o cümlədən insanların təhlükəsizliyini təmin etmək və müvafiq məlumatları qorumaq məqsədilə Milli Fəaliyyət Planında icraçı kimi müəyyən edilən orqanlar (qurumlar) öz fəaliyyətini "yalnız zəruri məlumatlara malik olma" prinsipi əsasında həyata keçirirlər.

## 2. Qlobal trendlər

İnsan alveri qlobal miqyasda transmilli və mütəşəkkil cinayətkarlığın ən təhlükəli formalarından biri kimi qalmaqda davam edir. Nüfuzlu beynəlxalq təşkilatların hesabatlarına əsasən, insan alverinin üsul və formaları dəyişərək daha mürəkkəb və

gizli xarakter almışdır. Bu isə dövlətlər qarşısında əlavə vəzifələr yaradaraq yeni mübarizə tədbirləri görülməsini zəruri edir.

İnsan alverinə qarşı qlobal səviyyədə aparılan mübarizənin nəticələri göstərir ki, heç bir dövlət bu bəladan tam sığortalanmayıb və təkbaşına təsirli əks-tədbirlər görə bilmir.

Problemin dərinləşməsində dünyanın əksər ölkələrində baş verən maliyyə böhranı, müharibə və silahlı münaqişələrin coğrafiyasının böyüməsi, ucuz işçi qüvvəsinə tələbatın artması və tənzimlənməyən miqrasiya axınının genişlənməsi xüsusi rol oynayır. Bütün bunlar insan alverini kriminal şəbəkə üçün daha əlverişli və cəlbedici etməklə onun məcburi əmək, mütəşəkkil və məcburi dilənçilik, terrorçuluq məqsədilə istismar, orqan transplantasiyası və başqa növlərinin arealını genişləndirməyə yeni imkanlar açır.

Bu sahədəki qlobal trendlər həm dövlətlər, həm də beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən siyasətlərlə və tədbirlərlə formalaşır.

İnsan alverinə qarşı mübarizə sahəsində müşahidə olunan əsas qlobal trendlər aşağıdakılardır:

**1. Hüquqi çərçivənin səmərəliliyinin artırılması** – insan alveri cinayəti ilə mübarizədə effektiv nəticələr əldə olunması üçün hüquqi mexanizmlərin gücləndirilməsi vacibdir. Əsas məqsəd insan alverinin qarşısının alınması, insan alveri qurbanlarının müdafiəsi və sosial reabilitasiyası, təqsirkar şəxslərin cəzalandırılması, beynəlxalq və regional koordinasiyanın gücləndirilməsini təmin edən hüquqi çərçivənin yaradılmasıdır. Qloballaşan dünyada insan alverinin üsul və formaları daim dəyişdiyindən bu sahədə mövcud hüquqi çərçivənin mütəmadi yenilənməsi və təkmilləşdirilməsi zərurəti yaranır.

Bu sahədə davamlı hüquqi islahatların həyata keçirilməsi, ilk növbədə, normativ hüquqi aktlarda yaranan boşluqların aradan qaldırılmasını, insan alveri qurbanlarının reabilitasiyasını, onlara psixoloji və hüquqi yardım göstərilməsini, cəmiyyətə inteqrasiya proseslərini, əməkdaşlıq mexanizmlərini və yeni təhlükələrə qarşı adekvat hüquqi mexanizmlərin yaradılmasını təmin edir.

Beləliklə, insan hüquqlarının qorunması istiqamətində atılan addımlar nəticəsində cəmiyyət insan alveri təhlükəsinə qarşı daha dayanıqlı olur.

**2. İnsan alverinə qarşı mübarizədə qabaqlayıcı tədbirlərin gücləndirilməsi** – maarifləndirmə, sosial-iqtisadi tədbirlər, miqrasiya proseslərinin tənzimlənməsi, sərhəd nəzarətinin gücləndirilməsi insan alverinin qarşısının alınmasında önəmli rol oynayır. Həm insan alveri qurbanlarının, həm də cəmiyyətin qalan hissəsinin insan alveri barədə məlumatlandırılması və bu məsələdə hansı resursların mövcud olduğunun açıqlanması vacibdir. Risk qruplarının daha yaxşı müəyyən olunması üçün qaçqınlar, miqrantlar, etnik azlıqlar və sosial baxımdan həssas qruplar üçün xüsusi müdafiə tədbirləri həyata keçirilir. Bu baxımdan, qlobal təşkilatlar və yerli vətəndaş cəmiyyəti institutları insan alveri qurbanlarının, risk altında olanların və ümumilikdə cəmiyyətin diqqətini bu məsələ üzərində cəmləşdirir. Təhsil müəssisələrində, ictimai yerlərdə seminarlar, reklamlar və sosial xarakterli kampaniyalar təşkil olunur, risk altında olan şəxslərin əmək bazarında rəqabət qabiliyyəti artırılır, sosial cəhətdən zəif əhali qruplarının sosial müdafiəsi gücləndirilir.

Yoxsulluğun, işsizliyin, sosial bərabərsizliyin və ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı proqramlar, strategiyalar qəbul olunur, təhsil imkanları artırılır və bununla da insan alverinin potensial qurbanlarının sayında xeyli azalma müşahidə olunur.

**3. İnsan alveri qurbanlarının müdafiəsi və sosial reabilitasiyasının gücləndirilməsi** – insan alveri qurbanlarının müdafiəsi və sosial reabilitasiyası kimi vacib sahələrdə çoxsaylı çağırışlar mövcuddur. Belə ki, insan alveri qurbanları insan

alverçilərindən və digər təhdidlərdən qorunur və onların anonimliyi təmin edilir. İnsan alveri qurbanları təhlükəsiz sığınacaqlara yerləşdirilir, onlar barəsində xüsusi mühafizə tədbirləri görülür.

İnsan alveri qurbanları ağır psixoloji travma yaşadıqlarından onların reabilitasiyası üçün psixoloji dəstək və terapiya proqramları vasitəsilə travmalarını sağaltmağa və psixoloji vəziyyətlərini yaxşılaşdırmağa kömək edilir, fiziki sağlamlığın bərpası üçün müayinə və müalicəsi təşkil olunur.

Qeyd olunanlar insan alveri qurbanlarının normal həyat tərzinə qaytarılmasına və cəmiyyətə inteqrasiyasına kömək edir.

**4. Əməkdaşlıq və koordinasiyanın yüksək səviyyədə təşkili** – insan alveri transsərhəd xarakter daşıdığı üçün dövlətlərarası hüquqi əməkdaşlıq mexanizmləri, o cümlədən ekstradisiya, informasiya mübadiləsi, birgə istintaq tədbirləri sahəsində hüquqi əsasların möhkəmləndirilməsi vacib amillərdir.

Ölkələrarası razılaşmalar, regional əməkdaşlıq və qlobal təşəbbüslər daha intensiv tətbiq edilir. İnsan alverinə qarşı mübarizədə beynəlxalq təşkilatlar və hüquq mühafizə orqanları mühüm rol oynayır. Həmin təşkilatlar dövlətlərarası əməkdaşlığı gücləndirir, bu sahədə məlumat mübadiləsini həyata keçirir.

Birləşmiş Millətlər Təşkilatı (bundan sonra – BMT) və müvafiq regional təşkilatlar insan alverinə qarşı mübarizə sahəsində müxtəlif layihələr həyata keçirirlər.

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında” Protokol (Palermo Protokolu) dövlətlərə bu cinayətlə mübarizə üçün hüquqi çərçivə təqdim edir. Bir çox ölkə bu Protokolu imzalayaraq qanunvericiliklərini ona uyğunlaşdırır və mübarizə tədbirləri görür.

İnsan alverinə qarşı mübarizə işində polis, sərhəd, təhlükəsizlik xidmətləri, prokurorluq, həmçinin sosial müdafiə, təhsil, səhiyyə, miqrasiya və digər dövlət orqanları (qurumları) əməkdaşlıq edirlər.

Bu əməkdaşlığı əlaqələndirmək üçün bir çox ölkələrdə insan alverinə qarşı mübarizə üzrə milli koordinatorlar təyin edilir, xüsusi qurumlar yaradılır, hər qurumda insan alveri məsələlərinə məsul şəxslər təyin edilir, dövlət orqanları (qurumları) və qeyri-hökumət təşkilatları nümayəndələrinin bir araya gəldiyi platformalar yaradılır.

Əməkdaşlıq və koordinasiya insan alverinə qarşı mübarizədə resurslardan səmərəli istifadə, informasiya boşluqlarının aradan qaldırılması və insan alveri qurbanlarının müdafiəsi üçün böyük imkanlar yaradır.

**5. Texnologiyanın təsirinin nəzərə alınması** – rəqəmsal platformalar və sosial media insan alveri üçün yeni vasitələr yaratmışdır. Bu platformalar vasitəsilə insan alverçiləri qurbanları asanlıqla tapır və istismar edirlər. Texnologiyanın inkişafı ilə insan alverçilərinin fəaliyyəti asanlaşsa da, hüquq mühafizə orqanlarına bu cinayəti törədənləri izləmək, dəlil toplamaq və insan alveri halları ilə bağlı məlumatları paylaşmaq üçün də yeni imkanlar yaranmışdır. Həm cinayətkarın fəaliyyətini izləmək, həm də insan alveri qurbanlarını aşkarlamaq üçün süni intellektdən və rəqəmsal alətlərdən istifadə artır. Eyni zamanda, texnologiya vasitəsilə profilaktik maarifləndirmə tədbirləri də həyata keçirilir ki, bu da insan alveri şəbəkələrinin təqibinə və insan alveri qurbanlarının xilas edilməsinə kömək edir.

**6. İqlim dəyişikliyi və təbii fəlakətlərin təsirinin qiymətləndirilməsi** – iqlim dəyişikliyi və təbii fəlakətlər insanların sosial-iqtisadi vəziyyətinə təsir edir. Onların yaratdığı məcburi köçkünlük, yoxsulluq və sosial qeyri-sabitlik insan alveri risklərini artırır. Belə ki, iqlim dəyişikliyi nəticəsində yaşayış şəraiti pisləşir, nəticədə insanlar digər regionlara və ölkələrə köçməyə məcbur olur, işsizlik və yoxsulluq artır. Böhran vəziyyətində dövlətin idarəetmə qabiliyyəti azalır, sərhədlər zəif qorunur. Bu səbəbdən dövlətlər riskli bölgələrdə dayanıqlı iqtisadi layihələr həyata keçirir, fəlakət bölgələrində

insan alverinə qarşı xüsusi nəzarət və müdaxilə proqramları hazırlayır, insan alveri qurbanlarının hüquqlarını qoruyan spesifik qanunlar qəbul edir, humanitar yardıma çıxışlarını təmin edirlər.

Beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən həyata keçirilən bu tədbirlər nəticəsində cəmiyyətin insan alverinə qarşı müqavimət qabiliyyəti güclənir.

**7. Qlobal monitorinq və hesabatlılığın davamlı təmin edilməsi** – insan alverinə qarşı mübarizənin effektivliyini təmin etmək üçün qlobal monitorinq sistemləri yaradılır. İnsan alveri ilə bağlı məlumatların toplanılması və analizi bu cinayətin qarşısının alınması üçün vacibdir. BMT, Avropa Şurası və digər təşkilatlar insan alverinin miqyası, insan alveri cinayəti törədən şəxslərin fəaliyyəti və insan alveri qurbanlarının vəziyyəti barədə mütəmadi hesabatlar hazırlayırlar.

Azərbaycan Respublikası üçün bu qlobal trendlərdən faydalanmaq insan alverinin qarşısının alınması və bu cinayətə qarşı mübarizənin gücləndirilməsi istiqmətində daha mütəşəkkil və səmərəli bir yanaşmaya doğru irəliləmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

## 3. Mövcud vəziyyətin təhlili

Demokratik, hüquqi dövlət quruculuğu yolunu seçmiş, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini dövlət siyasətinin prioritet istiqaməti elan etmiş Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə üzrə kompleks tədbirlər hüquqi müstəvidə 20 ildən artıqdır ki həyata keçirilir.

Azərbaycan Respublikası hələ 2003-cü ildə BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasına və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokola qoşularaq, üzərinə bu beynəlxalq sənədin müddəalarının yerinə yetirilməsi, cinayət təqibinin yüksək səviyyədə aparılması, insan alveri qurbanlarının müdafiəsi, ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi kimi öhdəliklər götürmüşdür.

Müvafiq istiqamətdə Azərbaycan Respublikasının regionda mütərəqqi siyasət yürüdən dövlətlərdən olmasını təsdiqləyən amillər sırasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş insan alverinə qarşı mübarizəyə dair milli fəaliyyət planları xüsusi qeyd edilməlidir. Milli fəaliyyət planlarının icrası çərçivəsində geniş normativ hüquqi baza formalaşdırılmış, o cümlədən Azərbaycan Respublikası Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında", "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" konvensiyalarına və digər beynəlxalq sənədlərə qoşulmuşdur.

Bununla yanaşı, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə insan alveri cinayətlərinə görə məsuliyyət müəyyən edən 4 maddə əlavə edilmişdir.

İnsan hüquq və azadlıqlarının etibarlı qorunması və insan alveri qurbanlarının müdafiəsi ilə bağlı normativ hüquqi aktların qəbul olunması normayaratma fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil etmiş, insan alveri əməlləri isə hər şeydən əvvəl insan hüquqlarını kobud surətdə pozan, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə ağır və xüsusilə ağır cinayət olaraq müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları" təsdiq olunmuş, həmin Qaydalarda qurbanların, xüsusilə uşaqların sosial reabilitasiyası, xüsusi müəssisələrə yerləşdirilməsi, öz ölkələrinə repatriasiyası ilə bağlı normalar müəyyən edilmişdir.

Müvafiq tədbirlər çərçivəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturunda xüsusi polis qurumu təsis edilmiş, insan alveri qurbanları üçün təhlükəsiz sığınacaq, "Yardım Mərkəzi", "Kömək Fondu", "Qaynar xətt" telefon xidməti, rəsmi internet informasiya ehtiyatı və s. istifadəyə verilmişdir.

İnsan alverinə qarşı mübarizədə iştirak edən dövlət orqanları (qurumları), vətəndaş cəmiyyəti institutları və xarici tərəfdaşlarla fəaliyyətin əlaqələndirilməsi məqsədilə İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator institutu təsis edilmişdir.

İnsan alverinin doğurduğu təhlükələr barədə ictimaiyyətin məlumatlandırılması prioritet vəzifələrdən olmaqla, bu işdə vətəndaş cəmiyyəti nümayəndələrinin və medianın imkanlarından geniş istifadə edilərək Azərbaycan Respublikasının bütün şəhər və rayonlarını, o cümlədən ali təhsil və orta ixtisas təhsili müəssisələrini əhatə edən minlərlə maarifləndirici görüş keçirilmişdir.

Bu sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi işinə xüsusi əhəmiyyət verilmiş, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə özündə 45 qeyri-hökumət təşkilatını birləşdirən İnsan Alverinə qarşı Qeyri-hökumət Təşkilatları Koalisiyası arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi üzrə tədbirlər məqsədyönlü olmaqla, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Miqrasiya Təşkilatı, Avropa Şurası, GUAM – Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz və digər ixtisaslaşmış beynəlxalq qurumlarla işgüzar əməkdaşlıq əlaqələri qurulmuşdur.

BMT-nin insan alverinə qarşı mübarizə üzrə 2024-cü ildə açıqladığı 156 ölkəni əhatə edən son Qlobal Hesabatdan görünür ki, 2022-ci ildə aşkarlanan insan alveri qurbanlarının sayı 2019-cu ilə nisbətən 25 faiz, pandemiyanın ən çox təsir etdiyi 2020-ci illə müqayisədə 43 faiz, insan alveri qurbanı olmuş uşaqların sayı isə 31 faiz artmışdır.

Aşkarlanmış insan alveri qurbanı olmuş qızların 60 faizi cinsi istismara, 21 faizi məcburi əməyə, 19 faizi isə digər məqsədlər üzrə fəaliyyətə cəlb edilmişlər. Oğlanların 8 faizi cinsi istismara, 45 faizi məcburi əməyə, 47 faizi məcburi dilənçiliyə, cinayətkarlığa və digər məqsədlər üzrə fəaliyyətə cəlb edilmişdir.

2019–2022-ci illərdə dünya üzrə məcburi əməyə cəlb edilmiş insan alveri qurbanlarının sayı 47 faiz artdığı halda, 2022-ci ildə məsuliyyətə cəlb edilənlərin yalnız 17 faizi məcburi əmək, 72 faizi isə cinsi istismar faktları ilə bağlı olmuşdur.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatına əsasən, insan alverinin dinamikası da dəyişərək, əvvəlki dövrlərə nisbətən insan alveri qurbanlarının aparıldığı təyinat ölkələrinin sayı artmış, 162 millətə aid şəxslər insan alveri cinayətinə məruz qalmışlar.

Göründüyü kimi, insan alveri ilə bağlı dünya statistikası hələ də narahatedicidir. Buna baxmayaraq, bu cinayət növünə qarşı həm beynəlxalq səviyyədə, həm də Azərbaycan Respublikasında məqsədyönlü və ardıcıl mübarizə aparılır.

Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanları (qurumları), vətəndaş cəmiyyəti institutları və beynəlxalq tərəfdaşlarla birlikdə görülən məqsədyönlü tədbirlərlə insan alverinə qarşı mübarizə sahəsində əməliyyat şəraitinə davamlı nəzarət edilmiş, risk qrupuna aid şəxslərin sözügedən cinayətlərdən müdafiəsi istiqamətində işlər görülmüş, insan alverinin qurbanları fiziki, psixoloji və sosial reabilitasiya tədbirləri ilə tam əhatə edilmişlər.

Azərbaycan Respublikasında insan alveri ilə mübarizənin hüquqi müstəvidə həyata keçirilməsinə başlanıldığı 2005-ci ildən 2026-cı ilədək görülmüş qətiyyətli tədbirlərlə beynəlxalq cinayətkar şəbəkənin ölkəmizdə fəaliyyət göstərməsinin qarşısı alınmış, ötən müddətdə 2532 cinayət qeydə alınmış, 1441 nəfər zərərçəkmiş şəxs

müəyyən edilmiş, nəticədə 650 nəfər təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilmişdir.

Cinayətlərin təhlilinin nəticələrinə əsasən qeyd olunmalıdır ki, ölkəmizdə insan alveri cinayətləri və onun formaları bütün cinayətlərin 1 faizini belə təşkil etməmişdir.

## 4. Milli Fəaliyyət Planının hədəf göstəriciləri

4.1. Milli Fəaliyyət Planının icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. insan alveri ilə mübarizə sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi;

4.1.2. insan alverinin qarşısının alınması və maarifləndirmə tədbirlərinin davam etdirilməsi;

4.1.3. insan alverçilərinin məsuliyyətə cəlb edilməsi;

4.1.4. hüquq mühafizə, digər dövlət orqanlarının (qurumlarının) və qeyri-hökumət təşkilatlarının insan alverinə qarşı mübarizə sahəsində fəaliyyətinin effektivliyinin artırılması;

4.1.5. insan alveri cinayətindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan şəxslərin, o cümlədən insan alverinin potensial qurbanlarının müdafiəsi və sosial reabilitasiyası;

4.1.6. əməkdaşlıq və tərəfdaşlığın, o cümlədən koordinasiyanın gücləndirilməsi;

4.1.7. insan alverinə qarşı mübarizə sahəsində resursların artırılması;

4.1.8. insan alverinə qarşı mübarizənin monitorinqi və qiymətləndirilməsi.

## 5. Milli Fəaliyyət Planının məqsədləri

5.1. Milli Fəaliyyət Planının əsas məqsədləri aşağıdakılardır:

5.1.1. insan alverinin səbəblərinin, insan alverinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması;

5.1.2. şəxslərin insan alverinin qurbanına çevrilməsi riskinin azaldılması;

5.1.3. şəxsiyyətin və cəmiyyətin insan alverinin istənilən formalarından müdafiəsi;

5.1.4. insan alverinin aşkar edilməsi və qarşısının alınması, habelə nəticələrinin aradan qaldırılması;

5.1.5. insan alveri qurbanlarının hüquqlarının bərpası və sosial reabilitasiyası.

## 6. Milli Fəaliyyət Planının prioritet istiqamətləri

6.1. Milli Fəaliyyət Planı çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

### 6.1.1. İnsan alverinə qarşı mübarizə sahəsində normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi:

6.1.1.1. **Əsaslandırma:** cəmiyyət inkişaf etdikcə, yeni çağırış və trendlər yarandıqca insan alveri cinayətlərinin xarakteri də dəyişir. Bu da normativ hüquqi aktların və institusional mexanizmlərin təkmilləşdirilməsini və zamanın tələblərinə uyğunlaşdırılmasını tələb edir. Milli qanunvericiliyin təkmilləşdirilməsi və institusional mexanizmlərin effektivliyini artıran tədbirlər görülməsi insan alverinə qarşı mübarizə fəaliyyətinin günün tələblərinə uyğun həyata keçirilməsinə, dövlət orqanlarının

(qurumlarının) bu sahədə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə zəmin yaradacaqdır;

6.1.1.2. **Görüləcək tədbirlər:**

6.1.1.2.1. insan alveri qurbanlarının müəyyən edilməsi qaydalarının (indikatorlarının) təkmilləşdirilməsi;

6.1.1.2.2. insan alverinin qurbanı olma riskinin azaldılması məqsədilə insan alverinə məruz qala biləcək həssas əhali qruplarının hüquqi və sosial müdafiəsinin gücləndirilməsini təmin etmək üçün müvafiq sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflər hazırlanması;

6.1.1.2.3. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tabeliyində olan, insan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaqların və insan alveri qurbanları və insan alverinin potensial qurbanları üçün fəaliyyət göstərən "Qaynar xətt" telefon məlumat xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi;

6.1.1.2.4. insan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi üçün yaradılmış İdarələrarası Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsi;

6.1.1.2.5. insan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun fəaliyyətinin təkmilləşdirilməsi;

6.1.1.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. insan alveri qurbanlarının müəyyən edilməsi qaydalarının (indikatorlarının) təkmilləşdirilməsi ilə bağlı müvafiq normativ hüquqi aktın qəbul edilməsi;

6.1.1.3.2. insan alverinə məruz qala biləcək həssas əhali qruplarının hüquqi və sosial müdafiəsinin gücləndirilməsinə dair müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi;

6.1.1.3.3. "Qaynar xətt" telefon məlumat xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi nəticəsində insan alverinin potensial qurbanlarının aşkar edilməsi imkanlarının artırılması;

6.1.1.3.4. insan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi üçün yaradılmış İdarələrarası Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsinə dair müvafiq normativ hüquqi aktın qəbul edilməsi;

6.1.1.3.5. insan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun fəaliyyətinin təkmilləşdirilməsinə dair müvafiq normativ hüquqi aktın qəbul edilməsi;

6.1.1.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. insan alverinə qarşı mübarizə sahəsində normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi məqsədilə hazırlanan normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması zamanı gecikmələr baş verə bilər. Bunun qarşısının alınması üçün normativ hüquqi akt layihələrinin birgə müzakirəsinin təşkil edilməsi, tələb olunduqda işçi qrupların yaradılması nəzərdə tutulur.

**6.1.2. İnsan alverinin qarşısının alınması (profilaktikası):**

6.1.2.1. **Əsaslandırma:** şəxsiyyətin və cəmiyyətin insan alverinin istənilən formalarından müdafiəsi və şəxslərin insan alverinin qurbanına çevrilməsi riskinin azaldılması məqsədilə profilaktik və preventiv xarakterli tədbirlərin gücləndirilməsinə, həmin tədbirlərin əhatə dairəsinin genişləndirilməsinə zərurət vardır;

6.1.2.2. **Görüləcək tədbirlər:**

6.1.2.2.1. insan alverinə qarşı mübarizə sahəsində maarifləndirmə işinin gücləndirilməsi məqsədilə insan alveri probleminin mahiyyəti və onun qarşısının alınması barədə metodiki vəsaitlərin hazırlanması;

6.1.2.2.2. insan alveri problemi, xüsusilə də onun gender aspektləri üzrə elmi tədqiqat və təhlillər aparılması və nəticələrinin ictimaiyyətə təqdim olunması;

6.1.2.2.3. insan alveri cinayətinin törədilməsinə şərait yaradan hallarla bağlı cəmiyyətdə ictimai dözümsüzlük mühitinin yaradılması məqsədilə inzibati, təhsil, sosial, mədəni və digər sahələrdə müvafiq tədbirlər görülməsi, bu işə vətəndaş cəmiyyəti institutlarının və media subyektlərinin cəlb edilməsi;

6.1.2.2.4. müxtəlif xidmət sahələrində işləyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məcburi əməyin qurbanı olması riskinin qarşısının alınması;

6.1.2.2.5. qanunsuz miqrasiya və ölkə ərazisindən insan alveri məqsədilə tranzit kimi istifadə edilməsinin qarşısının alınması işinin daha da gücləndirilməsi;

6.1.2.2.6. insan alverinin potensial qurbanlarının məşğulluğunun təmin edilməsi, insan alverindən zərər çəkməsi ehtimal olunan şəxslərin işə götürülməsi üçün sahibkarların təşviq edilməsi;

6.1.2.2.7. medianın və internet informasiya ehtiyatlarının mütəmadi monitorinqini aparmaqla, insan alverinin bütün formaları ilə bağlı ola bilən şübhəli halların mahiyyətinin öyrənilməsi və müvafiq tədbirlər görülməsi;

6.1.2.2.8. internet informasiya ehtiyatlarında uşaq pornoqrafiyasının yayılmasının, habelə uşaqların cinsi istismarının onlayn yayımlanması hallarının qarşısının alınması, Azərbaycan Respublikasında belə internet informasiya ehtiyatlarına çıxışın qanuna uyğun olaraq məhdudlaşdırılması ilə bağlı tədbirlər görülməsi;

6.1.2.2.9. insan alverinə qarşı mübarizədə, xüsusən insan alverinin qurbanı olmuş şəxslərin müdafiəsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin davam etdirilməsi və bununla bağlı məlumatların aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim olunması;

6.1.2.2.10. insan alverinə qarşı mübarizə ilə əlaqədar xarici ölkələrdə həbs olunan, xarici ölkələrin hüdudlarından kənara çıxarılan, insan alverinin qurbanı olan Azərbaycan Respublikasının vətəndaşları barədə məlumatların əldə olunması və konfidensiallıq qorunmaqla xüsusi polis qurumuna təqdim edilməsi;

6.1.2.2.11. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin müvəqqəti yerləşdirmə mərkəzlərində insan alverinin qurbanı olması ehtimal edilən şəxslərin müəyyənləşdirilməsi istiqamətində müvafiq tədbirlərin təşkili;

6.1.2.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. aidiyyəti dövlət orqanları (qurumları) əməkdaşlarının insan alveri probleminin mahiyyəti barədə nəzəri bilik səviyyəsinin artırılması;

6.1.2.3.2. elmi tədqiqat və təhlillərin nəticələrinin ictimaiyyətə təqdim edilməsi, həmin nəticələrin insan alverinə qarşı mübarizə üzrə fəaliyyətdə nəzərə alınması və ictimaiyyətin bu sahədə məlumatlılıq səviyyəsinin artırılması;

6.1.2.3.3. müvafiq təkliflər əsasında həyata keçirilən tədbirlər nəticəsində cəmiyyətdə insan alverinə şərait yaradan hallarla bağlı ictimai dözümsüzlük mühitinin yaradılmasına nail olunması;

6.1.2.3.4. əməyin istismarı halları, o cümlədən məcburi əmək qurbanları barədə müəyyən olunmuş məlumatların aidiyyəti üzrə təqdim edilməsi və bununla bağlı zəruri tədbirlər görülməsi nəticəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məcburi əmək qurbanı olması riskini yaradan halların aradan qaldırılması;

6.1.2.3.5. birgə tədbirlər planının təsdiq edilməsi və icrası nəticəsində qanunsuz miqrasiya və ölkə ərazisindən insan alveri məqsədilə tranzit kimi istifadə edilməsi risklərinin aradan qaldırılması;

6.1.2.3.6. insan alveri qurbanlarının sahibkarların dəstəyi ilə məşğulluq tədbirlərinə cəlb edilməsi və bu barədə məlumatların toplanılaraq ümumiləşdirilməsi;

6.1.2.3.7. medianın və internet informasiya ehtiyatlarının mütəmadi monitorinqi əsasında insan alverinin bütün formaları ilə bağlı ola bilən şübhəli halların mahiyyətinin öyrənilməsi və müvafiq tədbirlər görülməsi nəticəsində insan alverinin bütün formaları ilə bağlı faktların vaxtında aşkar edilməsi;

6.1.2.3.8. uşaq pornoqrafiyasını yayan, habelə uşaqların cinsi istismarını onlayn yayımlayan internet informasiya ehtiyatlarına çıxışın tam məhdudlaşdırılması;

6.1.2.3.9. insan alverinə qarşı mübarizə sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələbləri nəzərə alınmaqla aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətində tətbiqi;

6.1.2.3.10. müvafiq məlumatların xüsusi polis qurumunun vahid məlumat bazasında qeydə alınması;

6.1.2.3.11. müvəqqəti yerləşdirmə mərkəzlərində insan alverinin qurbanı olması ehtimal edilən şəxslər müəyyənləşdirildikdə həmin şəxslərin təhlükəsizliyinin təmin edilməsi, sosial və hüquqi xidmətlər göstərilməsi və müvafiq faktların araşdırılması məqsədilə aidiyyəti qurumlara məlumat verilməsi;

6.1.2.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. insan alveri mövzusunun cəmiyyət tərəfindən yetərincə aktual hesab edilməməsi, qeyri-hökumət təşkilatlarının resurs və imkan çatışmazlığı səbəbindən prosesdə passiv qalması insan alveri cinayətinin törədilməsinə şərait yaradan hallara qarşı cəmiyyətdə ictimai dözümsüzlük mühitinin yaradılması üzrə tədbirlərin effektivliyinə mənfi təsir göstərə bilər. Bu riskin aradan qaldırılması məqsədilə müvafiq tədbirlərin yerli icmalar üçün hədəflənməsi, həmin tədbirlərin planlaşdırılmasına və icrasına təcrübəli ekspert və mütəxəssislərin cəlb edilməsi, rəqəmsal alətlərdən istifadə, qeyri-hökumət təşkilatları üçün dəstək tədbirlərinin görülməsi, ictimai rəy sorğuları və qiymətləndirmənin keçirilməsi nəzərdə tutulur;

6.1.2.4.2. sahibkarlar tərəfindən insan alveri qurbanlarının işə götürülməsinə maraq göstərilməməsi, sosial məsuliyyətin inkişafı istiqamətində effektiv addımlar atılmaması, mövcud iş yerlərinin tələbləri ilə insan alveri qurbanlarının bacarıqları arasında uyğunsuzluq həmin şəxslərin məşğulluğunun təmin edilməsində çətinliklər yarada bilər. Bununla əlaqədar sahibkarlarla izahat işinin aparılması, stimullaşdırıcı tədbirlərin tətbiqi, uğurlu məşğulluq nümunələrinin təbliği, iş yerində uyğunlaşma dövrü üçün müşayiət mexanizmləri nəzərdə tutulur;

6.1.2.4.3. media və onlayn platformalarda məlumatların böyük həcmdə olması səbəbindən onların monitorinqi zamanı insan alveri ilə bağlı məlumatların diqqətdən yayınması, rəqəmsal monitorinq alətlərinin və ixtisaslı kadrların kifayət etməməsi riskləri vardır. Bu risklərin aradan qaldırılması üçün risk əsaslı filtrasiya və prioritetləşdirmə mexanizmlərinin tətbiqi, şübhəli halların qiymətləndirilməsi üçün aydın meyarların müəyyən edilməsi, rəqəmsal monitorinq sistemlərinin təkmilləşdirilməsi, analitik və texniki heyətlər üçün təlimlərin təşkili, qurumlararası operativ əlaqə mexanizmlərinin gücləndirilməsi nəzərdə tutulur;

6.1.2.4.4. insan alverinə qarşı mübarizədə, xüsusilə insan alverinin qurbanı olmuş şəxslərin müdafiəsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və bunun nəticəsində əldə olunmuş məlumatların aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim edilməsi zamanı qurumlararası maraq və koordinasiyanın zəifliyi, etibarlı beynəlxalq məlumatlara çıxış imkanlarının məhdud olması, təqdim edilən

məlumatların formal xarakter daşıması riskləri vardır. Bu risklərin aradan qaldırılması üçün qurumlararası işçi qrupların yaradılması, açıq mənbələrdən və rəsmi beynəlxalq hesabatlardan sistemli istifadə, habelə bu məqsədlə müvafiq sahədə ixtisaslı kadrların hazırlanması nəzərdə tutulur;

6.1.2.4.5. xaricdə insan alveri cinayəti törətmiş və ya həmin cinayətin qurbanı olmuş Azərbaycan Respublikasının vətəndaşları barədə məlumatların vaxtında və tam əldə edilməməsi, konfidensiallığın pozulması və fərdi məlumatların yayılması, insan alveri qurbanlarının əməkdaşlıqdan çəkinməsi, qorxu, etimadsızlıq və ya hüquqi nəticələrdən narahatlıq səbəbindən məlumat verməmələri riskləri vardır. Bununla əlaqədar Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları ilə operativ əlaqənin gücləndirilməsi, məlumatların ötürülməsi və saxlanması zamanı konfidensiallığın qorunması işinin təkmilləşdirilməsi, ixtisaslaşmış mütəxəssislərin prosesə cəlb edilməsi, qarşılıqlı hüquqi yardım sazişlərindən və digər beynəlxalq sənədlərdən yararlanaraq insan hüquqlarına əsaslanan yanaşmanın tətbiqi, hüquqi və psixoloji dəstək mexanizmləri barədə insan alveri qurbanlarının məlumatlandırılması nəzərdə tutulur;

6.1.2.4.6. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin müvəqqəti yerləşdirmə mərkəzlərində insan alverinin qurbanı olması ehtimal edilən şəxslərin müəyyənləşdirilməsi zamanı insan alveri qurbanlarının öz vəziyyətlərini açıqlamaqdan çəkinməsi, qorxu, etimadsızlıq, dil bilməmək və ya hüquqi nəticələrdən narahatlıq səbəbindən məlumat verməmələri, yanlış və ya natamam identifikasiya riskləri vardır. Bu risklərin aradan qaldırılması üçün insan hüquqlarına əsaslanan yanaşmanın tətbiqi, tərcüməçi və mütəxəssislərin cəlb edilməsi, məlumatlandırıcı izahat verilməsi, məxfi və təhlükəsiz müsahibə şəraitinin yaradılması və bu işə psixoloq və sosial işçilərin cəlb edilməsi nəzərdə tutulur.

**6.1.3. İnsan alveri cinayətlərinə qarşı cinayət təqibi ilə bağlı, habelə digər tədbirlərin təkmilləşdirilməsi:**

6.1.3.1. **Əsaslandırma:** insan alveri cinayətlərinə qarşı cinayət təqibi insan alveri ilə mübarizə fəaliyyətinin əsasını təşkil etdiyindən, həmin fəaliyyətin səmərəliliyinin artırılması üçün cinayət təqibi ilə bağlı və digər tədbirlərin təkmilləşdirilməsi, ibtidai istintaqın keyfiyyətinin yüksəldilməsi zəruridir;

6.1.3.2. **Görüləcək tədbirlər:**

6.1.3.2.1. insan alveri probleminin rəqəmsal mühitə keçməsi ilə əlaqədar xüsusi polis qurumunun fəaliyyətinin təkmilləşdirilməsi və kadr potensialının gücləndirilməsi;

6.1.3.2.2. xüsusi polis qurumunun fəaliyyətində səmərəliliyin artırılması;

6.1.3.2.3. transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə kontekstində insan alveri cinayətlərinin istintaqı zamanı sübutların toplanılması mexanizmlərinin təkmilləşdirilməsi və ibtidai istintaqın keyfiyyətinin artırılması;

6.1.3.2.4. insan alveri cinayəti ilə mübarizə sahəsində hüquq mühafizə və digər dövlət orqanları, o cümlədən məhkəmələrlə qarşılıqlı fəaliyyətin və koordinasiyanın gücləndirilməsi;

6.1.3.2.5. Azərbaycan Respublikasında insan alveri, o cümlədən məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi sahəsində tədbirlərin davam etdirilməsi;

6.1.3.2.6. uşaqların dilənçilik məqsədilə istismarının qarşısının alınması üçün zəruri tədbirlərin həyata keçirilməsi;

6.1.3.2.7. insan alveri cinayətinin ibtidai araşdırılması zamanı bu cinayət nəticəsində əldə edilmiş əmlakın aşkar olunması və leqallaşdırılmasının qarşısının alınması;

6.1.3.3: **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. xüsusi polis qurumunun fəaliyyətinin təkmilləşdirilməsi və kadr potensialının gücləndirilməsi ilə bağlı tədbirlər görülməsi nəticəsində həmin qurumun müvafiq sahədə yeni risklərə qarşı mübarizə potensialının artırılması;

6.1.3.3.2. müvafiq təkliflər əsasında xüsusi polis qurumunun fəaliyyətində səmərəliliyin artırılması üçün tədbirlər görülməsi nəticəsində həmin fəaliyyətin bütün istiqamətləri üzrə iş göstəricilərinin yüksəldilməsi;

6.1.3.3.3. müvafiq təkliflər əsasında insan alveri cinayətlərinin istintaqı zamanı sübutların toplanılması mexanizmlərinin təkmilləşdirilməsi və ibtidai istintaqın keyfiyyətinin artırılması istiqamətində müvafiq tədbirlər görülməsi nəticəsində ibtidai istintaqın səmərəliliyinin yüksəldilməsi;

6.1.3.3.4. insan alveri cinayətinə qarşı birgə mübarizənin həyata keçirilməsi üçün birgə tədbirlər planının hazırlanaraq təsdiq edilməsi və icrası üçün zəruri tədbirlər görülməsi;

6.1.3.3.5. insan alveri, o cümlədən məcburi əmək qurbanlarının müəyyən edilməsi və onların istismarı hallarına yol verən şəxslər barəsində müvafiq məsuliyyət tədbirlərinin görülməsi;

6.1.3.3.6. dilənçiliklə məşğul olan uşaqların valideynlərinə (onları əvəz edən şəxslərə) qarşı məsuliyyət tədbirlərinin görülməsi, uşaqların dilənçiliyinə şərait yaradan halların aradan qaldırılmasının təmin edilməsi;

6.1.3.3.7. insan alveri cinayətinin ibtidai araşdırılması zamanı bu cinayət nəticəsində əldə edilmiş əmlakın aşkar olunması və leqallaşdırılmasının qarşısının alınması ilə insan alveri cinayətlərinə qarşı cinayət təqibinin səmərəliliyinin artırılması;

6.1.3.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. xüsusi polis qurumunda informasiya-kommunikasiya texnologiyaları üzrə mütəxəssis çatışmazlığı yarana bilər. Bu risklərin aradan qaldırılması məqsədilə informasiya-kommunikasiya texnologiyaları üzrə peşəkar təlimçilərin müəyyən edilməsi və xüsusi polis qurumunun əməkdaşlarına təlimlər keçirilməsi, xüsusi polis qurumunun şəxsi heyətində informasiya-kommunikasiya texnologiyaları üzrə mütəxəssislərin sayının artırılması üçün tədbirlər görülməsi nəzərdə tutulur;

6.1.3.4.2. insan alveri, o cümlədən məcburi əmək qurbanlarının bu barədə məlumat verməkdən çəkinmələri, cinayət təqibi orqanı ilə əməkdaşlıqdan imtina etmələri kimi risklər vardır. Bununla əlaqədar qarşılıqlı inam mühitinin yaradılması, insan alveri, o cümlədən məcburi əmək qurbanlarının müəyyənləşdirilməsi üzrə fəaliyyətdə pedaqoq, psixoloq və digər mütəxəssislərin yardımından istifadə edilməsi nəzərdə tutulur;

6.1.3.4.3. insan alverçilərinin cinayət yolu ilə əldə etdikləri əmlakı digər şəxslərin adına qeydiyyata almaları riski vardır. Cinayət yolu ilə əldə edilmiş əmlakın müəyyən olunması istiqamətində keçirilən tədbirlər zamanı insan alverçisinə yaxın olan şəxslər tərəfindən əldə edilmiş şübhəli əmlak barədə araşdırmalar aparılması yolu ilə bu risk neytrallaşdırıla bilər.

**6.1.4. İnsan alveri qurbanlarının sosial reabilitasiyası və müdafiəsi:**

6.1.4.1. **Əsaslandırma:** insan alveri qurbanlarının sosial reabilitasiyası və müdafiəsi ilə bağlı kifayət qədər addımlar atılmaması onların yenidən istismar

edilmələri, sosial təcrid vəziyyətində qalmaları, beləliklə də, müstəqil həyat qurmaq üçün cinayətkar əməllərə meyil etmələri və təcili psixoloji yardım göstərilməməsi nəticəsində intihar risklərini artırır.

6.1.4.2. **Görüləcək tədbirlər:**

6.1.4.2.1. regionlarda insan alveri qurbanlarına xidmət göstərən yeni yardım mərkəzlərinin yaradılması və həmin mərkəzlərin fəaliyyətinin təmin edilməsi;

6.1.4.2.2. insan alveri qurbanlarına hüquqlarının bərpası məqsədilə keyfiyyətli və pulsuz hüquqi yardım göstərilməsi;

6.1.4.2.3. insan alveri qurbanlarına xidmət göstərən dövlət və qeyri-dövlət sığınacaq və yardım mərkəzlərinin imkanlarının artırılması;

6.1.4.2.4. insan alveri qurbanlarının əmək bazarında rəqabət qabiliyyətinin artırılması;

6.1.4.2.5. insan alveri qurbanlarına xidmət göstərən sığınacaq və yardım mərkəzlərində insan alveri qurbanlarına hüquqi yardım göstərilməsinə və onların sosial reabilitasiyasına aidiyyəti qeyri-hökumət təşkilatlarının cəlb olunması;

6.1.4.2.6. xarici ölkələrdə insan alverinin qurbanı olan Azərbaycan Respublikası vətəndaşlarının müdafiəsi;

6.1.4.2.7. xarici ölkələrdə insan alverinin qurbanı olan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə qayıtması üçün yardım göstərilməsi və onların zəruri ehtiyaclarının qarşılanması;

6.1.4.2.8. insan alveri qurbanlarının sosial reabilitasiyası ilə bağlı layihələrin maliyyələşdirilməsi;

6.1.4.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. regionlarda yeni yardım mərkəzlərinin fəaliyyətə başlaması nəticəsində insan alveri qurbanlarına dəstək və reabilitasiya sisteminin imkanlarının artırılması;

6.1.4.3.2. insan alveri qurbanlarına vəkil tərəfindən keyfiyyətli və pulsuz hüquqi yardım göstərilməsi nəticəsində onların hüquqlarının bərpasının təmin edilməsi;

6.1.4.3.3. insan alveri qurbanlarına xidmət göstərən dövlət və qeyri-dövlət sığınacaq və yardım mərkəzlərinin imkanlarının artırılması nəticəsində onlar tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

6.1.4.3.4. insan alveri qurbanlarının işsizlik probleminin aradan qaldırılması;

6.1.4.3.5. aidiyyəti qeyri-hökumət təşkilatları tərəfindən insan alveri qurbanlarına hüquqi yardım və onların sosial reabilitasiyasına müvafiq dəstək göstərilməsinin təmin edilməsi;

6.1.4.3.6. insan alverinin qurbanı olan Azərbaycan Respublikası vətəndaşının həyat və sağlamlığının, əmlakının təhlükəsizliyinin təmin edilməsi;

6.1.4.3.7. xarici ölkələrdə insan alverinin qurbanı olan və Azərbaycan Respublikasının ərazisinə qayıtmış Azərbaycan Respublikası vətəndaşlarının fiziki, psixoloji və sosial vəziyyətinin qiymətləndirilməsi nəticəsinə uyğun olaraq hər bir şəxsin sosial reabilitasiyası üçün fərdi planların hazırlanması və həyata keçirilməsi;

6.1.4.3.8. insan alveri qurbanlarının sosial reabilitasiyası ilə bağlı qalib elan edilən layihələrin maliyyələşdirilməsi nəticəsində insan alveri qurbanlarının sosial reabilitasiyasının keyfiyyətinin yüksəldilməsi;

6.1.4.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.4.4.1. regionlarda insan alveri qurbanlarına xidmət göstərən yeni yardım mərkəzlərinin yaradılması məqsədilə tədbirlər görülməsi üçün maliyyə vəsaitinə və maddi-texniki təchizata ehtiyac vardır. Həmin ehtiyacların qarşılanması zamanı

müəyyən çətinliklər yarana bilər. Bu məqsədlə Milli Fəaliyyət Planının 7-ci hissəsində nəzərdə tutulan mənbələr hesabına maliyyələşdirmə üçün aidiyyəti tədbirlər görülə bilər;

6.1.4.4.2. insan alveri qurbanlarına peşəkar yardım göstərən ixtisaslaşmış vəkillərin olmaması və ya az olması riski vardır. Bununla əlaqədar cəlb ediləcək vəkillər üçün xüsusi təlimlər keçirilməsi, onların müvafiq sahə üzrə peşə hazırlığı və vərdişlərinin artırılması nəzərdə tutulur;

6.1.4.4.3. Azərbaycan Respublikası vətəndaşının insan alveri cinayətinə məruz qaldığı ölkənin aidiyyəti dövlət qurumları ilə əlaqə yaratma imkanının olmaması, ölkəmizin xarici ölkələrdəki diplomatik nümayəndəlik və konsulluqlarının əməkdaşları tərəfindən insan alveri hallarına adekvat reaksiya verilməməsi riski vardır. Bununla əlaqədar Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluq işçilərinin xüsusi təlimlərə cəlb edilməsi, müvafiq sahədə nəzəri bilik səviyyəsinin və bacarıqlarının artırılması nəzərdə tutulur.

**6.1.5. İnsan alverindən zərər çəkmiş, zərər çəkməsi ehtimal olunan və ya insan alverinin potensial qurbanı olan uşaqlara göstərilən yardımın və onların müdafiəsinin təkmilləşdirilməsi:**

6.1.5.1. **Əsaslandırma:** insan alverindən zərər çəkmiş, zərər çəkməsi ehtimal olunan və ya insan alverinin potensial qurbanı olan uşaqlar yaşlarına və inkişaf səviyyələrinə görə insan alveri ilə bağlı əməllərin təhlükəliliyini tam qiymətləndirməkdə, öz hüquqlarını müdafiə etməkdə, habelə özlərini istismardan qorumaqda daha çox çətinlik çəkirlər. Qeyd olunanlar bu kateqoriyadan olan uşaqların hüquqazidd əməllərdən, o cümlədən insan alveri cinayətlərindən qorunması istiqamətində daha ciddi addımlar atılmasını zəruri edir;

6.1.5.2. **Görüləcək tədbirlər:**

6.1.5.2.1. erkən evlilik hallarının aşkarlanması və qarşısının alınması tədbirlərinin gücləndirilməsi;

6.1.5.2.2. tibb müəssisəsindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi;

6.1.5.2.3. insan alverindən zərər çəkmiş, zərər çəkməsi ehtimal olunan və ya insan alverinin potensial qurbanı olan uşaqların hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi, o cümlədən əlilliyi olan belə uşaqlara sosial xidmətlər göstərilməsi;

6.1.5.2.4. dövlət uşaq müəssisələri məzunlarının insan alveri qurbanına çevrilmə riskinin azaldılması məqsədilə onlara sosial-hüquqi və sosial-psixoloji xidmətlər göstərilməsinin, onların məşğulluğunun təmin edilməsi ilə bağlı yardım və sosial-məsləhət yardımları göstərilməsinin davam etdirilməsi;

6.1.5.2.5. uşaqların təhsildən yayınması və baxımsızlığı ilə bağlı monitorinqlərin davam etdirilməsi;

6.1.5.2.6. övladlığa götürülmüş, qəyyumluğa və ya himayədar ailəyə verilmiş uşaqların ailələrində monitorinq aparılması;

6.1.5.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.5.3.1. erkən evlilik hallarının aşkarlanması və qarşısının alınmasının, habelə ər-arvad münasibətlərində olan yetkinlik yaşına çatmayanların insan alverinin qurbanına çevrilmə riskinin aradan qaldırılmasının təmin edilməsi;

6.1.5.3.2. tibb müəssisəsindən kənarda baş verən doğuş faktlarının qeydiyyatının aparılması;

6.1.5.3.3. insan alverindən zərər çəkmiş, zərər çəkməsi ehtimal olunan və ya insan alverinin potensial qurbanı olan uşaqlar, o cümlədən əlilliyi olan belə uşaqlarla bağlı risklərə qarşı cavab tədbirlərinin tətbiqi nəticəsində onların hüquqlarının bütün sahələrdə səmərəli həyata keçirilməsi;

6.1.5.3.4. dövlət uşaq müəssisələri məzunlarının insan alveri qurbanına çevrilməsi riskinin aradan qaldırılması;

6.1.5.3.5. uşaqların təhsildən yayınması və baxımsızlığı ilə bağlı monitorinqlər nəticəsində onların insan alverinin potensial qurbanları olması ehtimalının minimuma endirilməsi;

6.1.5.3.6. övladlığa götürülmüş, qəyyumluğa və ya himayədar ailəyə verilmiş uşaqların insan alverinin qurbanına çevrilmə riskinin qiymətləndirilməsi;

6.1.5.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.5.4.1. erkən evlilik hallarının gizlədilməsi riski, yəni erkən evliliyin cəmiyyət daxilində gizli və qeyri-rəsmi formada həyata keçirilməsi bu halların aşkarlanması prosesini çətinləşdirə bilər. Ayrı-ayrı inzibati ərazi vahidlərində yerli əhali ilə işin gücləndirilməsi, dini icmalar, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, həmçinin təhsil və sosial müdafiə işçilərinin prosesə cəlb edilməsi mövcud risklərin aradan qaldırılmasını təmin edəcəkdir;

6.1.5.4.2. tibb müəssisələrindən kənarda baş verən doğuşların gizlədilməsi riski vardır. Sosial təcrid, ailə təzyiqi və ya şəxsiyyəti təsdiq edən sənədlərin olmaması bəzən tibb müəssisələrindən kənarda doğuşların baş verməsinə və həmin doğumların qeydiyyatının aparılmamasına səbəb ola bilər. Bu hallar həm uşağın hüquqlarının pozulmasına, həm də insan alveri məqsədli istismara şərait yarada bilər. Tibb müəssisələrinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, mobil səhiyyə xidmətlərinin təşkili, yerli əhali, həmçinin yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə işin gücləndirilməsi yolu ilə mövcud risklərin aradan qaldırılması nəzərdə tutulur;

6.1.5.4.3. bəzi inzibati ərazi vahidlərində yerli əhalinin dövlət müdaxiləsini mənfi qarşılaması uşaqların qorunması prosesini çətinləşdirə bilər. Müəllimlər və dini qurumların nümayəndələri arasında sosial məsuliyyət proqramlarının, insan alverinin potensial qurbanları arasında isə gender bərabərliyi və uşaq hüquqları sahəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi yolu ilə mövcud risklərin aradan qaldırılması nəzərdə tutulur;

6.1.5.4.4. uşaqların təhsildən yayınması hallarının gizlədilməsi və yanlış hesabat, təhsil müəssisələrinin qeyri-müntəzəm məlumat verməsi uşaqların təhsildən yayınması və baxımsızlığı ilə bağlı monitorinqlər aparılmasını çətinləşdirə bilər. Təhsil müəssisələrinin fəaliyyətinə nəzarətin gücləndirilməsi, təhsil müəssisələri ilə sosial xidmətlər göstərən qurumlar arasında xəbərdarlıq sisteminin tətbiqi, məktəbdən yayınan uşaqların izlənməsi üçün yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının imkanlarından istifadə qeyd olunan risklərin aradan qaldırılmasına xidmət edəcəkdir;

**6.1.6. İnsan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi:**

6.1.6.1. **Əsaslandırma:** Milli Fəaliyyət Planı iştirakçılarının qarşılıqlı fəaliyyətini təmin edən səmərəli sistemin qurulması, məlumat mübadiləsinin həyata keçirilməsi, insan alverinə qarşı mübarizədə beynəlxalq əlaqələrin gücləndirilməsi, aidiyyəti qeyri-hökumət təşkilatlarının insan alverinə qarşı mübarizə fəaliyyətinə cəlb olunmasının təmin edilməsi üçün insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi zəruridir;

6.1.6.2. **Görüləcək tədbirlər:**

6.1.6.2.1. insan alverinə qarşı mübarizədə dövlət orqanları (qurumları), beynəlxalq və qeyri-hökumət təşkilatları və özəl sektor arasında strateji tərəfdaşlığın gücləndirilməsi;

6.1.6.2.2. insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının maliyyələşdirilməsi;

6.1.6.2.3. insan alverinə qarşı mübarizənin səmərəliliyinin artırılması məqsədilə digər dövlətlərlə, xüsusən insan alveri ilə bağlı məsələlərdə Azərbaycan Respublikasına münasibətdə təyinat və mənbə ölkələrinin aidiyyəti dövlət qurumları ilə, bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi;

6.1.6.2.4. yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquqpozmalarının profilaktikası, həmçinin onların sosial reabilitasiyası sahəsində aidiyyəti qeyri-hökumət təşkilatları ilə və beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi;

6.1.6.2.5. beynəlxalq təşkilatların hesabatlarında və beynəlxalq reytinqlərdə insan alveri ilə mübarizə sahəsində Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılması istiqamətində səylərin davam etdirilməsi;

6.1.6.2.6. insan alveri ilə mübarizədə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əlaqələrin gücləndirilməsi, məlumat mübadiləsinin operativliyinin təmin edilməsi;

6.1.6.2.7. insan alverinə qarşı mübarizə istiqamətləri ilə bağlı ölkə və beynəlxalq səviyyəli elmi-praktik konfransların, seminarların, dəyirmi masaların və digər tədbirlərin keçirilməsi;

6.1.6.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.6.3.1. insan alverinə qarşı mübarizə sahəsində dövlət orqanları (qurumları), beynəlxalq və qeyri-hökumət təşkilatları və özəl sektor arasında strateji tərəfdaşlığın həyata keçirilməsinə yönəlmiş təşkilati və hüquqi tədbirlər görülməsi nəticəsində səmərəli əməkdaşlıq mexanizminin yaradılması;

6.1.6.3.2. insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının elan edilən qrant müsabiqələrində qalib gələn layihələrinin maliyyələşdirilməsi nəticəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin səmərəliliyinin artırılması;

6.1.6.3.3. təqdim edilən təkliflər əsasında insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi məqsədilə zəruri tədbirlər görülməsi nəticəsində insan alverinə qarşı mübarizə üzrə qarşılıqlı bilik və təcrübə mübadiləsinin aparılması;

6.1.6.3.4. insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlıq barədə sənədlərin imzalanması və icrası nəticəsində yetkinlik yaşına çatmayanlarla bağlı zəruri profilaktik və sosial reabilitasiya işlərinin keyfiyyətinin artırılması;

6.1.6.3.5. beynəlxalq təşkilatların hesabatlarında və beynəlxalq reytinqlərdə insan alveri ilə mübarizə sahəsində Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılması məqsədilə hesabatlarda ölkəmizlə bağlı qeyd edilən tövsiyələrin icrası üzrə tədbirlər görülməsi;

6.1.6.3.6. beynəlxalq təşkilatlardan və xarici dövlətlərdən daxil olan insan alverinə qarşı mübarizə sahəsində sorğulara Azərbaycan Respublikasının milli maraqları çərçivəsində operativ cavab verilməsi, Azərbaycan Respublikasının müvafiq sahədə etibarlı tərəfdaş statusunun möhkəmləndirilməsi;

6.1.6.3.7. insan alverinə qarşı mübarizə istiqamətləri ilə bağlı müəyyənləşdirilmiş mövzular üzrə konfransların, seminarların, dəyirmi masaların və digər tədbirlərin keçirilməsi nəticəsində müvafiq sahədə təcrübə mübadiləsinin, yeni ideya və həll yollarının formalaşdırılmasının təmin edilməsi;

6.1.6.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.6.4.1. insan alverinə qarşı mübarizə sahəsində xarici ölkələrin aidiyyəti dövlət qurumları ilə və müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıqda əlaqə çatışmazlıqları və koordinasiya zəifliyi riski vardır. Effektiv əlaqə və koordinasiya mexanizminin qurulması, müntəzəm beynəlxalq görüşlərin keçirilməsi, əməkdaşlıq sazişlərinin genişləndirilməsi və qarşılıqlı etimadın gücləndirilməsi yolu ilə bu riskin aradan qaldırılması nəzərdə tutulur;

6.1.6.4.2. insan alverinə qarşı mübarizə sahəsində ölkə və beynəlxalq səviyyəli elmi-praktik konfransların, seminarların, dəyirmi masaların və digər tədbirlərin keçirilməsi üçün maliyyə vəsaitinin yetərli olmaması riski vardır. Bununla əlaqədar, Milli Fəaliyyət Planının 7-ci hissəsində nəzərdə tutulan mənbələr hesabına maliyyələşdirmə aparılması üçün aidiyyəti tədbirlər görülə, o cümlədən donor təşkilatların maliyyə dəstəyindən istifadə oluna bilər;

6.1.6.4.3. insan alverinə qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlıq çərçivəsində məlumat mübadiləsinin operativliyində çətinliklər yaranması riski vardır. Bu riskin aradan qaldırılması üçün dövlət orqanlarının (qurumlarının) müvafiq sahədə əlaqələndirici qismində fəaliyyət göstərən əməkdaşlarına xüsusi təlimlər keçirilməsi nəzərdə tutulur.

**6.1.7. İnsan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən şəxslər üçün təlimlərin (ixtisaslaşmış peşə hazırlığının) keçirilməsi:**

6.1.7.1. **Əsaslandırma:** insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən şəxslər üçün təlimlərin (ixtisaslaşmış peşə hazırlığının) keçirilməsi dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi, əməkdaşların insan alverinə qarşı mübarizə sahəsində zəruri bilik və bacarıqlara yiyələnməsi, insan alveri qurbanlarının dəqiq müəyyən edilməsi, habelə insan alveri qurbanlarının psixoloji vəziyyəti nəzərə alınmaqla onlarla davranış qaydalarının mənimsənilməsi baxımından zəruri hesab olunur;

6.1.7.2. **Görüləcək tədbirlər:**

6.1.7.2.1. hüquq mühafizə orqanlarının, bu sahədə fəaliyyət göstərən digər dövlət orqanlarının (qurumlarının), o cümlədən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşları, hakimlər və məhkəmə aparatı işçiləri üçün insan alverinin, o cümlədən məcburi əməyin qurbanı olan şəxslərin, o cümlədən miqrantların müəyyən edilməsi, bu növ işlərin araşdırılması və baxılması zamanı məsələyə daha çox insan alveri qurbanının müdafiəsi baxımından yanaşılması mövzularında təlimlərin keçirilməsi;

6.1.7.2.2. insan alverinə qarşı mübarizəyə dair təlimlərin proqramına insan alveri qurbanlarının hüquqlarının müdafiəsi, müxtəlif xidmətlər göstərməyə məcbur edilmə və insanların istismar edilməsinin digər formaları, insan alverinin gender xüsusiyyətləri, uşaqlara məxsus aspektləri, uşaqların internet vasitəsilə cinsi istismara və ya zorakılığa cəlb olunması ilə bağlı mövzuların daxil edilməsi;

6.1.7.2.3. effektiv sərhəd nəzarəti tədbirləri vasitəsilə insan alverinin müxtəlif formaları, təqsirli və zərər çəkmiş şəxslərin müəyyən edilməsi məsələləri ilə bağlı təlimlər keçirilməsi;

6.1.7.2.4. insan alveri qurbanlarının hüquqi yardımdan səmərəli istifadə etmələrinin, o cümlədən onların kompensasiya almaq hüququnun dəstəklənməsi üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxslərinin müvafiq sahədə biliklərinin artırılması;

6.1.7.2.5. insan alverinin qurbanı olan uşaqların və ya potensial qurbanların müəyyən edilməsi və müdafiəsi mövzularında təlimlər keçirilməsi;

6.1.7.2.6. insan orqan və toxumalarının transplantasiyası üzrə cərrahiyyə əməliyyatlarını icra edən və ya insan orqan və toxumalarının transplantasiyasında digər formada iştirak edən tibb işçiləri üçün insan alverinin aşkarlanması istiqamətində sahəvi təlimlər keçirilməsi;

6.1.7.2.7. Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm sənayesi nümayəndələri üçün insan alveri qurbanlarının aşkarlanması üzrə təlimlər keçirilməsi;

6.1.7.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.7.3.1. insan alverinin, o cümlədən məcburi əməyin qurbanı olan şəxslərin, o cümlədən miqrantların müəyyən edilməsi, bu növ işlərin araşdırılması və baxılması zamanı məsələyə daha çox insan alveri qurbanının müdafiəsi baxımından yanaşılması mövzuları üzrə keçirilən təlimlər əsasında müvafiq sahələrdə dövlət orqanları (qurumları) əməkdaşlarının məlumatlılıq səviyyəsinin və bacarıqlarının artırılması;

6.1.7.3.2. insan alveri qurbanlarının hüquqlarının müdafiəsi, müxtəlif xidmətlər göstərməyə məcbur edilmə və insanların istismar edilməsinin digər formaları, insan alverinin gender xüsusiyyətləri, uşaqlara məxsus aspektləri, uşaqların internet vasitəsilə cinsi istismara və ya zorakılığa cəlb olunması ilə bağlı mövzular üzrə keçirilən təlimlər əsasında dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxslərinin bu sahələrdə bilik və bacarıqlarının artırılması;

6.1.7.3.3. effektiv sərhəd nəzarəti tədbirləri vasitəsilə insan alverinin müxtəlif formaları, təqsirli və zərərçəkmiş şəxslərin müəyyən edilməsi məsələləri ilə bağlı keçirilən təlimlər əsasında aidiyyəti vəzifəli şəxslərin müvafiq sahədə bilik və bacarıqlarının artırılması;

6.1.7.3.4. müvafiq vəzifəli şəxslərin bilik və bacarıqlarının artırılması nəticəsində insan alveri qurbanlarının hüquqi yardımdan səmərəli istifadə etmələrinin, o cümlədən onların kompensasiya almaq hüququnun dəstəklənməsi;

6.1.7.3.5. insan alverinin qurbanı olan uşaqların və ya potensial qurbanların müəyyən edilməsi və müdafiəsi mövzularında keçirilən təlimlər əsasında dövlət orqanları (qurumları) əməkdaşlarının müvafiq sahədə bilik və bacarıqlarının artırılması;

6.1.7.3.6. insan orqan və toxumalarının transplantasiyasında iştirak edən tibb işçilərinin insan alverinin aşkarlanması istiqamətində məlumatlılıq səviyyəsinin artırılması;

6.1.7.3.7. Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm sənayesi nümayəndələrinin insan alveri qurbanlarının aşkarlanması üzrə bilik səviyyəsinin artırılması;

6.1.7.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.7.4.1. təlim vəsaitlərinin və təlimçilərin sayının yetərli olmaması riski vardır. Bu riskin aradan qaldırılması üçün aidiyyəti qeyri-hökumət təşkilatlarının və müvafiq beynəlxalq təşkilatların imkanlarından istifadə olunması, xüsusi polis qurumu əməkdaşlarının təlimçi qismində iştirakının təmin edilməsi, geniş auditoriyanı əhatə edən onlayn təlimlərin keçirilməsinə texniki dəstək verilməsi nəzərdə tutulur.

**6.1.8. İnsan alverinə qarşı mübarizə ilə bağlı maarifləndirmə:**

6.1.8.1. **Əsaslandırma:** insan alverinə qarşı mübarizə ilə bağlı maarifləndirmənin həm preventiv, həm də transformativ əhəmiyyəti vardır. Preventiv səviyyədə maarifləndirmə insan alverinin potensial qurbanlarının riskləri tanımasına,

özünüqoruma bacarıqlarını inkişaf etdirməsinə xidmət edir, transformativ səviyyədə isə ictimai dəyərlərin dəyişməsinə, istismar və zorakılığa qarşı ictimai dözümsüzlük mədəniyyətinin formalaşmasına gətirib çıxarır. Bu baxımdan, maarifləndirmə təkcə fərdi davranışları deyil, həm də ictimai münasibətləri dəyişdirən sosial alət rolunu oynayır. Maarifləndirmə fəaliyyəti nəticəsində cəmiyyətdə insan alverinə qarşı həm fərdi, həm də institusional müqavimət formalaşır;

6.1.8.2. **Görüləcək tədbirlər:**

6.1.8.2.1. insan alverinə qarşı mübarizədə təbliğat və maarifləndirmə işinin gücləndirilməsi, bu məqsədlə müxtəlif sosial reklamların, çarxların, qısametrajlı filmlərin çəkilməsi, proqramların hazırlanıb nümayiş etdirilməsi;

6.1.8.2.2. insan alverinə qarşı mübarizə ilə bağlı müxtəlif maarifləndirici materialların, dövlət orqanları (qurumları) tərəfindən göstərilən sahədə görülən işlərə dair məlumatların internet informasiya ehtiyatlarında yerləşdirilməsi;

6.1.8.2.3. əməkçi miqrantlar arasında məcburi əmək riskləri barədə maarifləndirmə işi aparılması;

6.1.8.2.4. insan alverinə qarşı mübarizə sahəsində keçirilən bütün maarifləndirmə tədbirlərinin və təlimlərin nəticələrinin təşkilatçılar və iştirakçılar tərəfindən qiymətləndirilməsi təcrübəsinin tətbiq edilməsi;

6.1.8.2.5. uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə sahibkarlarla və işəgötürənlərlə təbliğat və maarifləndirmə işi aparılması;

6.1.8.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.8.3.1. insan alverinə qarşı mübarizə sahəsində aparılan təbliğat və maarifləndirmə işi, bu məqsədlə nümayiş etdirilən müxtəlif sosial reklamlar, çarxlar, qısametrajlı filmlər və proqramlar əsasında insan alverinə qarşı mübarizə ilə bağlı ictimaiyyətin bilik və məlumatlılığının artırılması;

6.1.8.3.2. insan alverinə qarşı mübarizə ilə bağlı müxtəlif maarifləndirici materialların və dövlət orqanları (qurumları) tərəfindən bu sahədə görülən işlərə dair məlumatların internet informasiya ehtiyatlarında yerləşdirilməsi ilə müvafiq sahədə məlumatlara əlçatanlığın artırılması;

6.1.8.3.3. əməkçi miqrantların məcburi əmək riskləri barədə məlumatlılıq səviyyəsinin artırılması;

6.1.8.3.4. qiymətləndirmə təcrübəsinin tətbiqi nəticəsində müvafiq maarifləndirmə tədbirlərinin və təlimlərin keyfiyyətinin artırılması;

6.1.8.3.5. uşaq əməyinin istismarının qarşısının alınması sahəsində sahibkarların və işəgötürənlərin məlumatlılığının artırılması;

6.1.8.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.8.4.1. maarifləndirmə fəaliyyətinin formal xarakter daşıması, maarifləndirici tədbirlərin yalnız hesabat məqsədilə, təsir göstəricilərindən uzaq şəkildə həyata keçirilməsi riski vardır. Bu riskin aradan qaldırılması üçün hər bir tədbirə görə konkret məqsəd və nəticə indikatorlarının müəyyənləşdirilməsi, monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiqi, maarifləndirmə mesajlarının sosial-psixoloji təsir təhlili əsasında hazırlanması nəzərdə tutulur;

6.1.8.4.2. maarifləndirmə tədbirlərinin hədəf qruplarına uyğunlaşdırılmaması, fərqli auditoriyalar (uşaqlar, gənclər, miqrantlar, sahibkarlar və s.) üçün eyniməzmunlu məlumatların istifadəsi maarifləndirmə işinin effektivliyini azalda bilər. Bununla əlaqədar maarifləndirmə materiallarının seqmentləşdirilməsi və yaş, sosial status, risk səviyyəsi nəzərə alınmaqla hazırlanması nəzərdə tutulur;

6.1.8.4.3. əməkçi miqrantlara yönəlik maarifləndirmənin dil və mədəni baryerlərə görə effektiv olmaması riski vardır. Bununla əlaqədar maarifləndirmə materiallarının xarici dillərdə hazırlanması, mətnlə əlaqəli, ideyanı izah edən və ya məlumatı vizual şəkildə təqdim edən tədris üsullarının tətbiqi, beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində mədəni adaptasiya mexanizmlərinin yaradılması nəzərdə tutulur;

6.1.8.4.4. maarifləndirmə tədbirlərinin nəticələrinin obyektiv qiymətləndirilməməsi riski vardır. Bununla əlaqədar dəqiq qiymətləndirmə meyarlarının hazırlanması, tədbir sonrası "iştirakçı rəyi", sorğu və fokus qrup müzakirələri vasitəsilə təsir analizi aparılması nəzərdə tutulur.

**6.1.9. Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin, insan alverinə qarşı mübarizə üzrə dəstəyin və resursların əlaqələndirilməsi:**

6.1.9.1. **Əsaslandırma:** Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin, insan alverinə qarşı mübarizə üzrə dəstəyin və resursların əlaqələndirilməsi bu sahədə institusional effektivliyin, resursların rasional bölüşdürülməsinin və məqsədyönlü nəticələr əldə edilməsinin əsas şərtidir. İnsan alverinə qarşı mübarizə kompleks və çoxsahəli yanaşma tələb etdiyindən, hüquq mühafizə, sosial müdafiə, səhiyyə, təhsil, miqrasiya və qeyri-hökumət sektoru kimi müxtəlif subyektlərin fəaliyyətinin bir-birini tamamlaması strateji əhəmiyyət daşıyır. Bu əlaqələndirmə təkcə idarəetmə mexanizmi deyil, həm də qarşılıqlı məsuliyyət və vahid məqsədə yönəlmiş sinxron fəaliyyət sistemidir. Milli Fəaliyyət Planının iştirakçıları arasında koordinasiyanın gücləndirilməsi, fəaliyyətlərin sistemləşdirilməsi və resursların optimal idarə olunması insan alveri ilə mübarizənin strateji effektivliyini artırır.

6.1.9.2. **Görüləcək tədbirlər:**

6.1.9.2.1. Milli Fəaliyyət Planının həyata keçirilməsi üçün donor təşkilatlarla əməkdaşlığın gücləndirilməsi;

6.1.9.2.2. Milli Fəaliyyət Planına göstərilən dəstəyin əlaqələndirilməsi, müvafiq dövlət orqanlarının (qurumlarının) və qeyri-hökumət təşkilatlarının, beynəlxalq təşkilatların və digər tərəfdaşların resurslarından birgə istifadənin həyata keçirilməsi işinin davam etdirilməsi.

6.1.9.3. **Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.9.3.1. razılaşdırılmış və uzunmüddətli inkişaf səyləri üçün imkanları yetərli olan donor təşkilatları Milli Fəaliyyət Planının icrasına cəlb etməklə, əməkdaşlığın təmin edilməsi nəticəsində insan alverinə qarşı mübarizəyə dəstəyin gücləndirilməsi;

6.1.9.3.2. müvafiq dövlət orqanları (qurumları), təşkilatlar və tərəfdaşlar arasında davamlı əməkdaşlığın təmin edilməsi və tərəflərin resurslarından səmərəli istifadə edilməsi;

6.1.9.4. **Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.9.4.1. Milli Fəaliyyət Planının həyata keçirilməsində iştirak edən dövlət orqanları (qurumları) arasında koordinasiyanın zəifliyi, fəaliyyətlərinin təkrarlanması və resursların səmərəsiz istifadəsi riski vardır. Bununla əlaqədar bütün dövlət orqanlarının (qurumlarının) insan alverinə qarşı mübarizə sahəsində üzərlərinə düşən vəzifələri "yalnız zəruri məlumatlara malik olma" prinsipi əsasında həyata keçirmələri, hesabatların vaxtında və keyfiyyətlə təqdim edilməsi, əlaqələndirici qurum tərəfindən qiymətləndirmə sistemi tətbiq edilməklə ümumiləşdirmələr aparılması nəzərdə tutulur;

6.1.9.4.2. fəaliyyətin qrant vəsaitlərindən asılı şəkildə qurulması uzunmüddətli dayanıqlığı zəiflədə bilər, yəni layihə dövrü bitdikdə təşəbbüslər yarımçıq qala bilər. Donor dəstəyi ilə yanaşı, dövlət büdcəsindən ayrılan vəsaitdən səmərəli istifadə olunması, beynəlxalq tərəfdaşlarla ortaq maliyyələşmə mexanizmlərinin tətbiqi, özəl sektorun sosial məsuliyyət fondlarının müvafiq sahəyə yönəldilməsi nəzərdə tutulur;

6.1.9.4.3. donor təşkilatların prioritetləri ilə dövlətin sosial-siyasi hədəfləri arasında tam uyğunluq olmadıqda, resurslar fərqli məqsədlərə yönələ bilər. Donorlarla ortaq strateji dialoq platformasının yaradılması, donorların fəaliyyət planlarının Milli Fəaliyyət Planının məqsədlərinə uyğunlaşdırılması üçün məsləhətləşmələr keçirilməsi nəzərdə tutulur.

## 7. Milli Fəaliyyət Planının maliyyələşdirilməsi

Milli Fəaliyyət Planı çərçivəsində həyata keçiriləcək tədbirlərin icrasının təmin edilməsi məqsədilə tələb olunan xərclərin müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları (qurumları) üçün nəzərdə tutulmuş vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

---

## 8. Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum), fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. İnsan alverinə qarşı mübarizə sahəsində normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1. | İnsan alveri qurbanlarının müəyyən edilməsi qaydalarının (indikatorlarının) təkmilləşdirilməsi | NK | DİN, ƏƏSMN, SN, DMX, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2026–2027 | İnsan alveri qurbanlarının müəyyən edilməsi qaydalarının (indikatorlarının) təkmilləşdirilməsi məqsədilə normativ hüquqi akt layihəsinin hazırlanması | Müvafiq qaydaların (indikatorların) təkmilləşdirilməsi ilə bağlı normativ hüquqi akt layihəsinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq qaydaların (indikatorların) təkmilləşdirilməsi ilə bağlı normativ hüquqi aktın qəbul edilməsi |
| 8.1.2. | İnsan alverinin qurbanı olma riskinin azaldılması məqsədilə insan alverinə məruz qala biləcək həssas əhali qruplarının hüquqi və sosial müdafiəsinin gücləndirilməsini təmin etmək üçün müvafiq sahədə normativ hüquqi bazanın | NK | DİN, ƏƏSMN | 2026–2027 | İnsan alverinin qurbanı olma riskinin azaldılması məqsədilə insan alverinə məruz qala biləcək həssas əhali qruplarının hüquqi və sosial müdafiəsinin | Müvafiq normativ hüquqi akt layihələrinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması | Müvafiq normativ hüquqi akt layihələrinin təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | təkmilləşdirilməsinə dair təkliflər hazırlanması | | | | gücləndirilməsini təmin etmək üçün müvafiq sahədə normativ hüquqi aktlarda dəyişiklik edilməsini nəzərdə tutan normativ hüquqi akt layihələrinin hazırlanması | | |
| 8.1.3. | DİN-in tabeliyində olan, insan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaqların və insan alveri qurbanları və insan alverinin potensial qurbanları üçün fəaliyyət göstərən "Qaynar xətt" telefon məlumat xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi | DİN | | 2026–2027 | Müvafiq sığınacağın və "Qaynar xətt" telefon məlumat xidmətinin fəaliyyətinin təkmilləşdiril-məsinə dair təkliflərin hazırlanması və təhlili | Həmin təkliflər əsasında "Qaynar xətt" telefon məlumat xidmətinin fəaliyyətinin müasir tələblər çərçivəsində təşkili ilə bağlı tədbirlər görülməsi | İnsan alverinin potensial qurbanlarının aşkar edilməsi imkanlarının artırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.4. | İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi üçün yaradılmış İdarələrarası Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsi | NK | DİN, İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi üçün yaradılmış İdarələrarası Komissiyanın üzvü olan dövlət orqanları (qurumları) | 2026–2027 | İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi üçün yaradılmış İdarələrarası Komissiyanın fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə normativ hüquqi akt layihəsinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihəsinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması və qəbul olunmaq üçün təqdim edilməsi | Müvafiq normativ hüquqi aktın qəbul edilməsi |
| 8.1.5. | İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun fəaliyyətinin təkmilləşdirilməsi | NK | DİN, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun üzvü olan dövlət orqanları (qurumları) | 2026–2027 | İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun fəaliyyətinin təkmilləşdirilməsinə dair normativ hüquqi akt layihəsinin hazırlanması | Müvafiq normativ hüquqi akt layihəsinin aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırılması və aidiyyəti üzrə təqdim edilməsi | Müvafiq normativ hüquqi aktın qəbul edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **8.2. İnsan alverinin qarşısının alınması (profilaktikası)** | | | | | | | |
| 8.2.1. | İnsan alverinə qarşı mübarizə sahəsində maarifləndirmə işinin gücləndirilməsi məqsədilə insan alveri probleminin mahiyyəti və onun qarşısının alınması barədə metodiki vəsaitlərin hazırlanması | DİN | ETN, ƏƏSMN, SN, AQUPDK, DMX | Mütəmadi | Müvafiq metodiki vəsaitlərin hazırlanması və aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilməsi | Müvafiq metodiki vəsaitlər əsasında aidiyyəti dövlət orqanlarının (qurumlarının) əməkdaşlarına təlimlər keçirilməsi | Aidiyyəti dövlət orqanları (qurumları) əməkdaşlarının insan alveri probleminin mahiyyəti barədə nəzəri bilik səviyyəsinin artırılması |
| 8.2.2. | İnsan alveri problemi, xüsusilə də onun gender aspektləri üzrə elmi tədqiqat və təhlillər aparılması və nəticələrinin ictimaiyyətə təqdim olunması | AŞ, AQUPDK, DİN | ETN, elm və ali təhsil müəssisələrini və aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2026–2030 | Müvafiq sahədə aparılacaq elmi tədqiqatlar üçün problemin müxtəlif aspektlərini əks etdirən mövzuların müəyyən edilməsi və digər hazırlıq işlərinin görülməsi | Müvafiq sahədə elmi tədqiqat və təhlillər aparılması, yeni metodika və yanaşmaların formalaşdırılması | Elmi tədqiqat və təhlillərin nəticələrinin ictimaiyyətə təqdim edilməsi, həmin nəticələrin insan alverinə qarşı mübarizə üzrə fəaliyyətdə nəzərə alınması və ictimaiyyətin bu sahədə məlumatlılıq səviyyəsinin artırılması |
| 8.2.3. | İnsan alveri cinayətinin törədilməsinə şərait yaradan hallarla bağlı cəmiyyətdə ictimai dözümsüzlük mühitinin yaradılması məqsədilə inzibati, təhsil, sosial, | DİN, ƏƏSMN, ETN, MdN, aidiyyəti qeyri-hökumət | VXSİDA, AŞ<br><br>Tövsiyə edilir: İnsan hüquqları üzrə | Mütəmadi | İnsan alveri cinayətinin törədilməsinə şərait yaradan hallarla bağlı cəmiyyətdə ictimai dözümsüzlük mühitinin | Müvafiq təkliflərin təhlili və ümumiləşdirilməsi | Müvafiq təkliflər əsasında həyata keçirilən tədbirlər nəticəsində cəmiyyətdə insan alverinə şərait yaradan hallarla |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | mədəni və digər sahələrdə müvafiq tədbirlər görülməsi, bu işə vətəndaş cəmiyyəti institutlarının və media subyektlərinin cəlb edilməsi | təşkilatlarını və media subyektlərini cəlb etməklə | müvəkkil (ombudsman), MŞ | | yaradılması məqsədilə müvafiq sahələrdə həyata keçirilməsi zəruri olan tədbirlərə dair təkliflər hazırlanması | | bağlı ictimai dözümsüzlük mühitinin yaradılmasına nail olunması |
| 8.2.4. | Müxtəlif xidmət sahələrində işləyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məcburi əməyin qurbanı olması riskinin qarşısının alınması | DMX | DİN, DTX, ƏƏSMN, VXSİDA | Mütəmadi | Miqrantların daha çox olduğu qanunsuz əmək birjalarının müəyyən edilməsi, tikinti sahələrində, bazarlarda, vağzallarda və bu kateqoriyadan olan digər obyektlərdə müşahidələrin aparılması | Qanunsuz əmək birjalarının fəaliyyətinin qarşısının alınması məqsədilə reydlər keçirilməsi, aparılan müşahidələr əsasında müvafiq obyektlərdə əməyin istismarı ilə bağlı şübhəli halların müəyyən edilməsi | Əməyin istismarı halları, o cümlədən məcburi əmək qurbanları barədə müəyyən olunmuş məlumatların aidiyyəti üzrə təqdim edilməsi və bununla bağlı zəruri tədbirlər görülməsi nəticəsində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin məcburi əmək qurbanı olması riskini yaradan halların aradan qaldırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.5. | Qanunsuz miqrasiya və ölkə ərazisindən insan alveri məqsədilə tranzit kimi istifadə edilməsinin qarşısının alınması işinin daha da gücləndirilməsi | DMX, DSX | DİN, DGK, DSX, DTX | Mütəmadi | Qanunsuz miqrasiya və ölkə ərazisindən insan alveri məqsədilə tranzit kimi istifadə edilməsinin qarşısının alınması işinin daha da gücləndirilməsi üçün birgə tədbirlər planının hazırlanması barədə təkliflərin təqdim edilməsi | Müvafiq birgə tədbirlər planının hazırlanması | Birgə tədbirlər planının təsdiq edilməsi və icrası nəticəsində qanunsuz miqrasiya və ölkə ərazisindən insan alveri məqsədilə tranzit kimi istifadə edilməsi risklərinin aradan qaldırılması |
| 8.2.6. | İnsan alverinin potensial qurbanlarının məşğulluğunun təmin edilməsi, insan alverindən zərər çəkməsi ehtimal olunan şəxslərin işə götürülməsi üçün sahibkarların təşviq edilməsi | ƏƏSMN, İN | DİN, YİHO, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | Mütəmadi | İnsan alverinin potensial qurbanlarının məşğulluğunun təmini üçün sahibkarlarla görüşlər keçirilməsi | Keçirilən görüşlər nəticəsində sahibkarların müvafiq sahədə məlumatlılıq səviyyəsinin artırılmasının təmin edilməsi | İnsan alveri qurbanlarının sahibkarların dəstəyi ilə məşğulluq tədbirlərinə cəlb edilməsi və bu barədə məlumatların toplanılaraq ümumiləşdirilməsi |
| 8.2.7. | Medianın və internet informasiya ehtiyatlarının mütəmadi monitorinqini aparmaqla, insan alverinin bütün formaları ilə bağlı ola bilən şübhəli halların | DİN, DTX | RİNN, AŞ | Mütəmadi | Medianın və internet informasiya ehtiyatlarının monitorinqinin aparılması | Media və internet informasiya ehtiyatlarında insan alverinin bütün formaları ilə bağlı ola biləcək məlumatların | İnsan alverinin bütün formaları ilə bağlı faktların vaxtında aşkar edilməsi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | mahiyyətinin öyrənilməsi və müvafiq tədbirlər görülməsi | | | | | müəyyənləşdirilməsi və araşdırılması | |
| 8.2.8. | İnternet informasiya ehtiyatlarında uşaq pornoqrafiyasının yayılmasının, habelə uşaqların cinsi istismarının onlayn yayımlanması hallarının qarşısının alınması, Azərbaycan Respublikasında belə internet informasiya ehtiyatlarına çıxışın qanuna uyğun olaraq məhdudlaşdırılması ilə bağlı tədbirlər görülməsi | DİN, DTX | RİNN, digər aidiyyəti dövlət orqanları (qurumları) | Mütəmadi | İnternet informasiya ehtiyatlarının monitorinqinin aparılması | Uşaq pornoqrafiyasının yayılmasının, habelə uşaqların cinsi istismarının onlayn yayımlanması hallarının müəyyənləşdirilməsi | Uşaq pornoqrafiyasını yayan, habelə uşaqların cinsi istismarını onlayn yayımlayan internet informasiya ehtiyatlarına çıxışın tam məhdudlaşdırılması |
| 8.2.9. | İnsan alverinə qarşı mübarizədə, xüsusən insan alverinin qurbanı olmuş şəxslərin müdafiəsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin davam etdirilməsi və bununla bağlı məlumatların aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim olunması | XİN | DİN | Mütəmadi | İnsan alverinə qarşı mübarizədə, xüsusən insan alverinin qurbanı olmuş şəxslərin müdafiəsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə bu sahədə yayımlanan beynəlxalq hesabatların təhlil edilməsi | İnsan alverinə qarşı mübarizə sahəsində yayımlanan beynəlxalq hesabatların təhlili nəticəsində qabaqcıl beynəlxalq təcrübəyə dair toplanılmış məlumatların aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim edilməsi | İnsan alverinə qarşı mübarizə sahəsində qabaqcıl beynəlxalq təcrübənin Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələbləri nəzərə alınmaqla aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətində tətbiqi |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.10. | İnsan alverinə qarşı mübarizə ilə əlaqədar xarici ölkələrdə həbs olunan, xarici ölkələrin hüdudlarından kənara çıxarılan, insan alverinin qurbanı olan Azərbaycan Respublikasının vətəndaşları barədə məlumatların əldə olunması və konfidensiallıq qorunmaqla xüsusi polis qurumuna təqdim edilməsi | XİN, DİDK | DMX, DİN | 2026–2030 | Xarici ölkələrdə insan alveri cinayətlərinə görə həbs olunan, ölkə hüdudlarından kənara çıxarılan insan alverinin qurbanı olan Azərbaycan Respublikasının vətəndaşları barədə məlumatların əldə edilməsi | Müvafiq məlumatların ümumiləşdirilməsi, təhlili və konfidensiallıq qorunmaqla xüsusi polis qurumuna təqdim edilməsi | Müvafiq məlumatların xüsusi polis qurumunun vahid məlumat bazasında qeydə alınması |
| 8.2.11. | DMX-nin müvəqqəti yerləşdirmə mərkəzlərində insan alverinin qurbanı olması ehtimal edilən şəxslərin müəyyənləşdirilməsi istiqamətində müvafiq tədbirlərin təşkili | DMX, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | | 2026–2030 | Müvəqqəti yerləşdirmə mərkəzlərində müvafiq tədbirlərin təşkili məqsədilə iş planının hazırlanması və təsdiqi | Təsdiq olunmuş iş planında nəzərdə tutulan işlərin yerinə yetirilməsi | Müvəqqəti yerləşdirmə mərkəzlərində insan alverinin qurbanı olması ehtimal edilən şəxslər müəyyənləşdirildikdə həmin şəxslərin təhlükəsizliyinin təmin edilməsi, sosial və hüquqi xidmətlər göstərilməsi və müvafiq faktların araşdırılması məqsədilə aidiyyəti qurumlara |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | məlumat verilməsi |
| **8.3. İnsan alveri cinayətlərinə qarşı cinayət təqibi ilə bağlı, habelə digər tədbirlərin təkmilləşdirilməsi** | | | | | | | |
